*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 2* *ISSN 2663-4368*
*Səhifə: 189-194* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.2.189*

# Üzeyir Hacıbəyli və Gəncə musiqi mədəniyyəti (şəxsi arxiv materialları əsasında)

**Nərgiz Mustafazadə**
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
nergiz.mustafazada@gmail.com
ORCID ID: https://orcid.org/0009-0005-7279-0464

**Annotasiya:** XX əsrdə Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında mühüm rol oynamış, milli musiqi mədəniyyətimizin banisi olan Üzeyir Hacıbəyli həm də ictimai fəaliyyəti ilə seçilən şəxsiyyət olmuşdur. Üzeyir Hacıbəylinin Azərbaycan SSR Ali Sovetinin deputatı kimi fəaliyyəti, xüsusilə, diqqətəlayiqdir. Onun Azərbaycan SSR və SSRİ Nazirlər Sovetinin sessiyalarındakı çıxışları, yardım üçün ünvanlanan çağırışlara müsbət cavab verməsi bu insanın nə qədər qayğıkeş və diqqətli olmasının sübutudur.
Üzeyir Hacıbəyli dəfələrlə qədim Gəncədə olmuş, burada professional musiqi mədəniyyətinin inkişafı sahəsində əvəzsiz işlər görmüşdür. O, 1920-ci ildə təşkil edilən Xalq Maarif Komissarlığı nəzdində yaranan incəsənət şöbəsinin rəhbəri təyin olunmuş, həmin vaxtdan etibarən Azərbaycanın bütün bölgələrində, o cümlədən Gəncədə musiqi mədəniyyətinin inkişafına xüsusi diqqət yetirmişdir. Gəncədə 1923-cü ildə ilk musiqi məktəbinin, sonra musiqi texnikumunun açılması, daha sonra Gəncə Dövlət Filarmoniyasının təşkili məhz Üzeyir bəyin rəhbərliyi və təşəbbüsü ilə mümkün olmuşdur.
Üzeyir Hacıbəylinin həyat və yaradıcılıq yolunu işıqlandıran şəxsi arxivi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Ədibin şəxsi arxivi tərcümeyi-hal sənədləri, əsərlərinin əlyazmaları, ona ünvanlanmış məktub, teleqram, müxtəlif sənəd və digər materialları özündə ehtiva edir. Üzeyir Hacıbəylinin şəxsi arxivində müxtəlif sənədlərlə yanaşı, Gəncə ilə bağlı məktub və teleqramlar da yer almaqdadır.
**Açar sözlər:** görkəmli bəstəkar, ictimai xadim, musiqi mədəniyyəti, mədəni mərkəz, şəxsi arxiv.

**Məqalə tarixçəsi:** göndərilib – 03.09.2025; qəbul edilib – 14.10.2025

# Uzeyir Hajibeyli and the musical heritage of Ganja (insights from personal archival materials)

**Nargiz Mustafazada**

**Abstract:** Uzeyir Hajibeyli, the founder of our national musical culture and a key figure in the development of Azerbaijani literature and culture, also distinguished himself through his significant public engagement in the 20th century. His activity as a deputy of the Supreme Soviet of the Azerbaijan SSR is particularly noteworthy. His speeches at the sessions of the
Azerbaijan SSR and the USSR Council of Ministers, as well as his positive responses to calls for assistance, testify to his compassion and attentiveness.
Uzeyir Hajibeyli visited ancient Ganja on numerous occasions, where he made invaluable contributions to the development of professional musical culture. He was appointed head of the Department of Art under the People's Commissariat for Education established in 1920 and from that time onward, he devoted special attention to the development of musical culture throughout all regions of Azerbaijan, including Ganja. The opening of the first music school in Ganja in 1923, followed by a music college and later the establishment of the Ganja State Philharmonic, was made possible precisely through Uzeyir Hajibeyli's leadership and initiative.

The personal archive illuminating Uzeyir Hajibeyli's life and creativity is preserved at the Institute of Manuscripts named after Mahammad Fuzuli of the Azerbaijan National Academy of Sciences. This archive includes biographical documents, manuscripts of his works, letters and telegrams addressed to him, as well as various official papers and other materials. Among these documents are also letters and telegrams specifically related to Ganja.
**Keywords:** prominent composer, public figure, musical heritage, cultural center, personal archive.

**Article history:** received – 03.09.2025; accepted − 14.10.2025

## Giriş / *Introduction*

XIX əsrin 90-cı illəri və XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni, demək olar ki, bütün sahələrində oyanış, milli-azadlıq meyillərinin güclənməsi bir proses kimi özünü göstərməkdə idi. Əsrin əvvəllərində baş vermiş böyük ictimai-siyasi hadisələrin təsiri ilə ölkədə milli-demokratik meyillər güclənmiş, milli azadlıq uğrunda mübarizə gündəmə gəlmişdi. XX əsrin əvvəllərində mövcud quruluşu dəyişmək, xalqı milli istiqlala çatdırmaq əsas ideal idi. Məhz bu dövrdə XX əsr Azərbaycan mədəniyyətinin ilk xadimləri yadelli istismarın, amansız milli zülmün hökm sürdüyü bir şəraitdə fəaliyyət göstərmişlər. Bu görkəmli xadimlərdən biri də XX əsr Azərbaycan ədəbi və mədəni mühitinin parlaq siması, Azərbaycan musiqi mədəniyyətinin banisi, görkəmli bəstəkar və ictimai xadim Üzeyir Hacıbəyli olmuşdur. Onun zəngin ədəbi-bədii irsi, müdrik şəxsiyyəti, əzablı və eləcə də şərəfli həyatı bədii və elmi əsərlər üçün zəngin materialdır.

## Əsas hissə / *Main part*

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli 1885-ci il sentyabrın 18-də Şuşa yaxınlığında Ağcabədi kəndində anadan olmuşdur. Üzeyir Hacıbəylinin uşaqlıq və gənclik illərinin ilk dövrləri Şuşada keçmişdir. Təbiətinin gözəlliyi və tarixi irsi ilə seçilən Şuşa həm də elm, mədəniyyət, ədəbiyyat və incəsənət sahələrinə verdiyi dəyərli şəxsiyyətlərlə tanınır. Şuşa, bir çox görkəmli ziyalılarımız kimi Üzeyir Hacıbəylinin də ilk yaradıcılıq, ilham mənbəyi olmuşdur. *"Məhz buna əsasən Üzeyir Hacıbəyli yazırdı ki, mən ilk musiqi təhsilimi uşaqlıq zamanı Şuşada, ən yaxşı xanəndə və sazəndələrdən almışam. O vaxt mən "Muğam" və "Təsnif" oxuyardım. Səsim xanəndələrin xoşuna gələrdi. Onlar məni oxudar və öyrədərdilər..." [2, s.7].* Üzeyir Hacıbəyli ibtidai təhsilini Şuşada, Nikolayevski adına rus-tatar məktəbində almışdır. 1899-cu ildə Şuşa rus-tatar məktəbini bitirdikdən sonra təhsilini davam etdirmək məqsədi ilə Qori Müəllimlər Seminariyasına daxil olmuşdur. Burada o, dünya mədəniyyəti ilə tanış olur, rus və Qərbi Avropa klassiklərinin dahi əsərlərini mənimsəyir, seminariya illəri, tələbəlik həyatı, buranın müxtəlif millətlərdən olan qabaqcıl insanları Üzeyirin dünyagörüşünün inkişafında mühüm rol oynayır.

*"Ə.Q.Terequlov yazırdı ki, bizim musiqi sahəsində təhsilimizin inkişafında Semyon P.Qoqilicidzenin verdiyi nəğmə dərsləri az rol oynamadı. O, bizi ilk dəfə not sistemi ilə tanış etdi. Bizim yoldaşlardan bir çoxuna, xüsusilə, Azərbaycanın uzaq kəndlərindən gələnlərə, Qərb nəğmə və musiqisini eşitməyənlərə bu dərslər ağır gəlirdi...*

*Buna görə də Qarabağdan gəlmiş, bu vaxtadək Avropa nəğmə və musiqisini eşitməmiş Üzeyir Hacıbəyovun bir-iki dərsdən sonra birdən-birə bunları mənimsəməsi, "ikinci" və "üçüncü" səslə oxumağı bacarması bizi təəccübləndirdi...*

*Şərq musiqi və nəğmə məsələlərində bizim yoldaşlar arasında misilsiz avtoritet, tənqidçi və icraçı ustad Üzeyir idi..."* [2, s.9].

1904-cü ildə Üzeyir Hacıbəyli Qori Müəllimlər Seminariyasını bitirib Şuşa yaxınlığında Hadrud kənd məktəbində müəllim təyin olunur. Bir müddət sonra Bakıya köçən Üzeyir bəy

ədəbi-publisistik fəaliyyətə başlayır. "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni iqbal" qəzet və məcmuələrində kiçik məqalələrlə fəaliyyətə başlayan Ü.Hacıbəyli sonradan daha kəskin felyetonlar yazır, tərcüməçiliklə məşğul olur, əsərlərini, əsasən, "Filankəs" və "U" imzaları ilə nəşr etdirir.

*"Üzeyir bəy yazırdı ki, mənim yaradıcılığıma Mirzə Fətəlinin yazdığı əsərlərin böyük təsiri olmuşdur. Şuşada Haşımbəy Vəzirovun rəhbərliyi ilə o zamankı intellegensiyanın bir yerə yığışıb M.F.Axundovun "Vəzir xan Sərabi" komediyasını səhnəyə qoyduqları yaxşı yadımdadır. Bu zaman Mirzə Fətəlinin pyesi gah məktəb binasında, gah şəhərin "Xandəmirov klubu" adlanan binada tamaşaya qoyulardı. Mirzə Fətəli pyesləri məndə birinci dəfə teatr əsəri yazmaq həvəsi oyatdı"* [2, s.7].

Üzeyir Hacıbəyli hələ seminariya illərində digər fənlərlə yanaşı, bilavasitə musiqi təhsili və nəzəriyyəsi ilə bağlı olan elmlərlə də maraqlanmışdır. O, bütün həyatı boyu Azərbaycan xalq musiqisini, onun parlaq incilərlə dolu olan xəzinəsini təhlükəli təsirlərdən qorumuşdur. Xalq musiqisi onun nəzərində müqəddəsdir. Azərbaycan xalqı tarixin çox ağır və əzablı dövrlərində belə öz musiqi yaradıcılığından əl çəkməmiş, nəsildən-nəsilə əsrlər uzunu yaşatmışdır. Musiqini yüksək qiymətləndirən Azərbaycan xalqı, bəşəriyyətin musiqi mədəniyyəti xəzinəsinə qiymətli incilər vermişdir. Azərbaycan xalqının zəngin musiqi yaradıcılığı böyük bir dəryadır. Dahi bəstəkar Ü.Hacıbəyli Azərbaycan xalq yaradıcılığından istifadə edərək "Leyli və Məcnun" operasını qələmə alır. Onun 1907-ci ildə yazdığı Azərbaycan operasının birinci əsəri olan "Leyli və Məcnun" operası əsas etibarilə xalq havaları və Azərbaycan muğamının mahiranə bir surətdə işlənməsindən ibarətdir. Bu əsər Şərqdə, eləcə də Azərbaycanda opera sənətinin əsasını qoymuşdur.

*"Hüseynqulu Sarabski yazır ki, bir gün "Gaveyi-ahəngər" tamaşaya qoyulmuşdu. Fərhadı mən oynayırdım... "Gavə"dən sonra "Əlmənsur"u oynadıq. Axırıncı pərdədə bir ərəb "sədayi-qayibanə" oxuyur; o rolu mən oynayırdım. Ərəb qiyafəsində "hicaz" üstə oxudum... O gecə Üzeyir bəy Hacıbəyli ittifaqən teatrda imiş. Səhnədə mənim "hicaz" oxumağımı görüb, xoşladı. Fikrində olan "Leyli və Məcnun" operasını yazmağa başladı. Bir gün Quberski küçədə "Nicat"a getdiyim yerdə mənə rast gəldi və dedi: "Nə gözəl oxudun, çox xoşuma gəldi. Mən bir "Leyli və Məcnun" operası başlamışam. Məcnun rolunu oynayarsanmı, gedim yazım?" Dedim: Oynayaram! O vaxtlar Üzeyir bəy sabiq "İslamiyyə" otelində yaşayırdı. Adresini mənə verib dedi: "İki gündən sonra yanıma gələrsən". İki gündən sonra getdim. Yazdığı əsərin havalarından mənə oxutdurdu. Mən çox asanlıqla oxudum. Üzeyir bir daha həvəsləndi. Odur ki, mən gündə onun yanına gedib Məcnun roluna hazırlaşırdım. "Leyli və Məcnun" tamam oldu...*

*Rejissor: Hüseyn Ərəblinski, dirijor Əbdürrəhimbəy Haqverdiyev, suflyor Əlabbas Rzayev idi. Üzeyir isə özü orkestrdə skripka çalırdı. Xorda və orkestrdə iştirak edənlər türk müəllimləri idi. Üzeyir başını itirmişdi. Çünki bir adam demirdi ki, oyun gözəl keçəcək..." [2, s.29].*

Üzeyir Hacıbəyli 1912-ci ildə təhsili artırmaq məqsədilə Moskvaya gedir. Lakin maddi çətinliklərə görə burada çox qala bilmir və geri qayıdır. Bir müddət yenidən bədii yaradıcılıqla məşğul olduqdan sonra yenidən musiqi təhsilini davam etdirir, "Arşın mal alan" musiqili komediyasını yazır. Bu əsər Üzeyir Hacıbəylini bütün dünyada məşhur edir. Bir ilin içərisində "Arşın mal alan" yalnız Bakı teatr səhnələrində 150 dəfədən çox oynanılır.

1932-ci ildən Ü.Hacıbəyli "Koroğlu" operası üzərində işləməyə başlayır və əsər üzərində iş 1934-cü ildə tamamlanır. "Koroğlu" operası yalnız musiqi əsəri deyil, həm də klassik irsə, xalqın tarixinə yanaşmağın, onlardan yaradıcı şəkildə istifadə etməyin, mədəni irs və folklor ənənələrini müasir dövrün tələb və prinsiplərinə uyğun davam etdirməyin gözəl nümunəsi idi.

"Koroğlu" operasının qazandırdığı şöhrətdən sonra Ü.Hacıbəylinin bir ictimai xadim kimi də fəaliyyət sahəsi genişlənir. O, 1937-ci ildə Azərbaycan SSR xalq artisti fəxri adına layiq görülür. 1945-ci ildən Üzeyir bəy Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilir və İncəsənət İnstitutunun direktoru vəzifəsinə təyin olunur.

Üzeyir Hacıbəylinin Azərbaycan SSR Ali Sovetinin deputatı kimi fəaliyyəti, xüsusilə, diqqətəlayiqdir. Onun Azərbaycan SSR və

SSRİ Nazirlər Sovetinin sessiyalarındakı çıxışları, yardım üçün ünvanlanan çağırışlara müsbət cavab verməsi bu insanın nə qədər qayğıkeş və diqqətli olmasının sübutudur.

Üzeyir Hacıbəyli dəfələrlə qədim Gəncədə olmuş, burada professional musiqi mədəniyyətinin inkişafı sahəsində əvəzsiz işlər görmüşdür. Fikrət Əmirovun təbirincə desək, dahi Füzulinin ədəbiyyatımızda gördüyü işi musiqimizdə məhz ilk dəfə böyük Üzeyir bəy həyata keçirmişdir. Üzeyir Hacıbəylinin əsərləri xalq və vətən sevgisinin bədii təcəssümüdür. O, əsərlərini ilk növbədə xalqın mənəvi zövqünü oxşayaraq, onun daxili aləmini zənginləşdirmək, bədii estetik dünyagörüşünü yüksəltmək baxımından qələmə alırdı.

Üzeyir bəyin Gəncəyə gəlişi hələ seminariyada oxuduğu illərdən başlayır. Onun seminariyada oxuyarkən İsmayıl Qayıbov adlı gəncəli dostu varmış. Gəncənin görkəmli maarif işçisi olan bu şəxs 1899-1904-cü illərdə Qori Müəllimlər Seminariyasında Üzeyir bəylə birgə təhsil alıbmış. *Onun xatirələrindən: "Üzeyirlə yaxın dost idik. Yay tətilində mənimlə Gəncəyə gəlməsini təklif etdim. 1900-cü ildə ilk dəfə o, mənimlə Qoridən Gəncəyə gəldi. Seminariyanın dərs proqramına uyğun olaraq burada bir neçə xanəndə və sazəndə ilə görüşüb onların ifasından 50-yə qədər xalq mahnısını nota saldı"* [6, s.7]. Xatırladaq ki, bu zaman Üzeyir bəyin cəmisi 15 yaşı var idi. Bu onun sənətdə göstərdiyi fədakarlığın ilk nümunələridir.

Sonrakı dövrlərdə də Üzeyir bəyin İsmayıl Qayıbovla dostluq münasibətləri davam edir. Hətta onun "Leyli və Məcnun" operasının ilk tamaşasında da var. *Üzeyir bəy xatirələrində yazır: "Leyli və Məcnun" operası birinci dəfə tamaşaya qoyularkən orkestrin heyəti skripkaçı seminariya yoldaşlarımdan ibarət idi. A.Terequlov, Ağaəli Qasımov, Fərhad Ağayev, İsmayıl Qayıbov və başqaları"* [6, s.7].

Üzeyir bəyin sonrakı illərdə Gəncəyə səfərləri çox olub və dəfələrlə burada onun əsərləri səhnələşdirilib. Məsələn, 1916-cı və 1921-ci illərdə "Arşın mal alan" operettası, 1941-ci ildə "Koroğlu" operası tamaşaya qoyulub.

O, 1920-ci ildə təşkil edilən Xalq Maarif Komissarlığı nəzdində yaranan incəsənət şöbəsinin rəhbəri təyin olunur. Həmin vaxtdan etibarən o, Azərbaycanın bütün bölgələrində, o cümlədən Gəncədə musiqi mədəniyyətinin inkişafına xüsusi diqqət yetirir. Gəncədə 1923-cü ildə ilk musiqi məktəbinin, sonra musiqi texnikumunun açılması, daha sonra Gəncə Dövlət Filarmoniyasının təşkili məhz Üzeyir bəyin rəhbərliyi və təşəbbüsü ilə mümkün olub.

Onun ideyalarını həyata keçirən gəncəli sənətkarlar da Üzeyir bəylə çiyin-çiyinə çalışıb. Onlardan unudulmaz bəstəkarımız Fikrət Əmirovun atası Məşədi Cəmil Əmirovun da adını çəkə bilərik. O, Üzeyir bəyin yaxın dostlarından biri olmuşdur. M.C.Əmirov Üzeyir Hacıbəylinin Gəncədə səhnəyə qoyulan opera və operettalarında Məcnun, Zeyd, Kərəm, Rza bəy rollarında və başqa rollarda çıxış etmişdir. Onun 1915-ci ildə Gəncədə ilk dəfə səhnəyə qoyulan "Seyfəl-mülk" operasının tamaşasına Üzeyir Hacıbəyli də dəvət edilmişdir. M.C.Əmirov Türkiyədə professional musiqi təhsili almış, mahir tarzən, ifaçı və bəstəkar idi. M.C.Əmirov həm də muğam və xalq musiqimizin geniş təbliğatçısı olub. O, ilk dəfə "Heyratı" zərbi muğamını nota köçürərək nəşr etdirib.

1923-cü ildə yaradılan musiqi studiyasının bazası əsasında Gəncədə musiqi məktəbi açılmış və Məşədi Cəmil Əmirov həmin məktəbə direktor təyin olunmuşdur. Böyük bəstəkar yeni sənət ocağı üçün tədris planlarının hazırlanmasında Moskvadan, Kiyevdən, Sankt-Peterburqdan və başqa yerlərdən ali musiqi təhsilli müəllimlərin dəvət edilməsində M.C.Əmirova yaxından kömək göstərmişdir.

*Üzeyir Hacıbəylinin Gəncəyə hər gəlişi yeni bir ideya ilə bağlı olmuşdur. Vaxtı ilə Gəncə musiqi texnikumunun direktoru olmuş İsax Bağırovun bəstəkarın unudulmaz səfərlərindən birini belə xatırlayırdı: "Üzeyir Hacıbəyli 1933-cü ilin sentyabr ayında musiqi texnikumuna gəldi. Bəstəkarın təklifi ilə biz evbəev gəzərək skripka və violonçeldə çalmaq üçün milli kadrlar topladıq. Üzeyir müəllimin göstərişi ilə onları ikiqat təqaüdlə təmin etdik. Elə bu bünövrə üzərində bir neçə ildən sonra şəhərimizdə artıq violonçelçalanlar ansamblı və kamera orkestri fəaliyyət göstərməyə başladı...*

*Üzeyir Hacıbəylinin Gəncəyə qayğı və köməyi çox olmuşdur. Məhz onun təşəbbüsü ilə 15 aprel 1939-cu ildə Gəncədə Dövlət Filarmoniyası təşkil edilmişdir. Belə bir sənət ocağının yaradılması üçün Üzeyir bəy hələ mart ayında*

*Gəncəyə gəlmiş, beş gün ərzində burada gərgin iş apararaq baxış müsabiqələri vasitəsilə ümidverən ifaçılarını aşkara çıxararaq onlara uğurlu yol arzulamışdır”* [5].

Üzeyir Hacıbəylinin həyat və yaradıcılıq yolunu işıqlandıran şəxsi arxivi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Bəstəkarın şəxsi arxivini Əlyazmalar İnstitutuna 1965-ci ildə həyat yoldaşı Məleykə xanım tərəfindən təqdim olunmuş və 17 saylı fondda yerləşdirilmişdir. Ədibin şəxsi arxivi tərcümeyi-hal sənədləri, əsərlərinin əlyazmaları, Ü.Hacıbəyliyə yazılmış məktub, teleqramlar, müxtəlif sənədlər və digər materialları özündə ehtiva edir. Üzeyir Hacıbəylinin şəxsi arxivində müxtəlif sənədlərlə yanaşı, Gəncə ilə bağlı məktub və teleqramlar da yer almaqdadır:

“Hörmətli kompozitor, Üzeyir bəy.

Salam...,

Kirovobad musiqi məktəbinin vəziyyətini sizə söyləmək istəyirəm. Müəllim, məktəbdə bir neçə nəfər Azərbaycanlı kadrolar var ki, onlar mütləq gələcəkdə Bakıda yaxşı və bacarıqlı müəllimlərdə oxumalıdır. Məktəbin vəziyyəti yaxşıdır. Yaz və yay imtahanlarında özüm də iştirak etdim. Teatroda “Vəfa”nı bu gün qurtardım. Özümü bir az zəif hiss edirəm. Üzeyir bəy, qəti qərar etmişəm, sentyabrdan gələcəyəm oxumağa. Paşayevin məndən xahiş etdiyi şeyi öyrəndim. Bəli vardır. Paşayeva xəbər verin. Hələlik. Məndən kompozitorlara salam. Musiqi məktəbi üçün bir nəfər direktorun kondidaturasını verin. Sizin kiçiyiniz Fikrət.

Fikrət Əmirovdan.

24.VII.1943” [1].

*“Gəncənin yetirməsi, Şərq simfonizminin ustadı, Fikrət Əmirov Üzeyir Hacıbəylinin adını həmişə böyük iftixarla çəkərdi. Bəstəkar özünün “Musiqi düşüncələri” kitabında yazır: “1938-ci ildə Bülbül məni Üzeyir Hacıbəylinin kabinetinə apararaq Üzeyir bəy, bu, Məşədi Cəmilin oğludur, -dedi,- bəstəkar olmaq istəyir”.*

*Üzeyir bəy, böyük məmnuniyyətlə Fikrətin ilk əsərlərini dinləmiş və ona demişdir ki, sən əsl bəstəkar olacaqsan. Belə də oldu, Fikrət Əmirov öz müəllimi Üzeyir Hacıbəylinin etimadını şərəflə doğrultdu”* [5].

Bəstəkarın şəxsi arxivində qorunub saxlanılan digər sənəd ona Gəncədən göndərilən təbrik teleqramıdır. Ü.Hacıbəyliyə ünvanlanmış bu təbrik teleqramı onun Gəncə ilə əlaqələrinin mövcudluğunu göstərir.

“Срочно

Баку Азербай. Государств. Консерватория

Узеира Гаджибекову от Кировабада.

Поздравляю вас званием академика желаю вам многолетней плодотворнои деятельности на благо нашего народа с приветом. 1945” [7].

## Nəticə / *Conclusion*

Ü.Hacıbəylinin şəxsi arxivindəki məktublardan görünür ki, o, Moskva, Sankt-Peterburq, Odessa, Daşkənd və keçmiş SSRİ-nin digər şəhərlərində yerləşən musiqi kollektivlərini, musiqi məktəblərini müxtəlif səbəblərlə təbrik etmiş, onların təbrikini almış, müxtəlif şəhərlərdəki opera teatrlarının xahişi ilə əsərlərinin mətnini oraya göndərmişdir. SSRİ Ali Sovetinin deputatı kimi ölkə ziyalılarına, musiqiçilərinə, zəhmətkeşlərinə əlindən gələn yardımı etmişdir. Bəstəkara Naxçıvan Muxtar Respublikasından yardım xahişləri, şikayətlər gəlirdi. Bunun bir səbəbi də o idi ki, Üzeyir bəy həmin bölgədən deputat olmuşdu. O, Naxçıvanda mədəniyyətin, xüsusən də musiqinin inkişafına diqqətlə yanaşır, yen-yeni layihələr həyata keçirməyi təklif edirdi. Əlavə edək ki, Ü.Hacıbəyli bütün respublikada, SSRİ-də böyük nüfuza malik olduğundan ona hər yerdən müraciətlər olunurdu. Bəstəkarın şəxsi arxivindəki sənədlər onun fəaliyyət dairəsinin nə qədər geniş olduğunu bir daha nəzərə çatdırır. Arxiv sənədləri və onun çoxşaxəli yaradıcılığı bir daha sübut edir ki, Üzeyir Hacıbəyli yalnız Gəncədə deyil, bütövlükdə Azərbaycanın musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamışdır.

**Ədəbiyyat / *References***


1. Əmirov F. Məktub. AMEA ƏYİ, f.17, sax. vah.272.
2. Hacıbəyli Ü. Ömür salnaməsi. 1885-1948. Biblioqrafiya. Bakı: Şərq-Qərb, 2008, 392 s.
3. Hacıbəyli Ü. Seçilmiş əsərləri. 2 clddə, I cild. Bakı: Şərq-Qərb, 2005, 408 s.
4. Hacıbəyli Ü. Seçilmiş əsərləri. 2 cilddə, II cild. Bakı: Şərq-Qərb, 2005, 465 s.
5. İbrahimov M. Tufanlara kömək edən bir qələm. Bakı: Azərnəşr, 1987, 198 s.
6. İsmayılzadə R. Üzeyir Hacıbəyov və Gəncə: Ü.Hacıbəyov-120 // Azərbaycan. - 2005. - 21 sentyabr.
7. Şirinova S. Dahi şəxsiyyətin istedad axtarışı. Ü.Hacıbəyov//Mədəniyyət.-2010.-3 sentyabr. – s. 7.
8. Teleqram (Ü.Hacıbəyova). AMEA ƏYİ, f.17, sax. vah.533.


**Узеир Гаджибейли и музыкальное культурное наследие Гянджи**
**(на основе материалов из личного архива)**

**Наргиз Мустафазада**

**Резюме:** Узеир Гаджибейли, сыгравший важную роль в развитии азербайджанской литературы и культуры в XX веке, и, ставший основоположником нашей ациональной музыкальной культуры, был также личностью, отличавшейся своей общественной деятельностью.

Особого внимания заслуживает деятельность Узеира Гаджибейли в качестве депутата Верховного Совета Азербайджанской ССР. Его выступления на сессиях Совета Министров Азербайджанской ССР и СССР, его позитивный отклик на призывы о помощи свидетельствуют о том, насколько заботливым и внимательным был этот человек.

Узеир Гаджибейли неоднократно посещал древнюю Гянджу и проделал неоценимую работу в области развития там профессиональной музыкальной культуры. Он был назначен заведующим художественным отделом при Наркоме просвещения, организованном в 1920 году, и с этого времени уделял особое внимание развитию музыкальной культуры во всех регионах Азербайджана, в том числе и в Гяндже. Открытие в Гяндже первой музыкальной школы, затем музыкального училища, а позднее, в 1923 году и организация Гянджинской государственной филармонии стало возможным именно под руководством и по инициативе Узеир бека.

Личный архив Узеира Гаджибейли, проливающий свет на его жизненный и творческий путь, хранится в Институте рукописей имени Мухаммеда Физули Национальной академии наук Азербайджана. В личном архиве писателя хранятся биографические документы, рукописи его произведений, письма Узеиру Гаджибейли, телеграммы, различные документы и другие материалы. Помимо различных документов, в личном архиве Узеира Гаджибейли хранятся также письма и телеграммы, связанные с Гянджой.

**Ключевые слова:** выдающийся композитор, общественный деятель, музыкальная культура, культурный центр, личный архив.